# XX-XXI ƏSRLƏRİN QOVŞAĞINDA MİLLİ MƏTBUATIN ÇƏTİN VƏ ŞƏRƏFLİ MÜBARİZƏSİ

## *Teymur Əhmədovun jurnalistik fəaliyyətinə bir nəzər*

Teymur Əhmədovun mətbuat fəaliyyətini nəzərdən keçirəndə görürük ki, İsmayıl bəy Qaspiralı "Tərcüman"ı, Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin"i, Əli bəy Hüseynzadə "Füyuzat"ı, Əhməd bəy Ağayev "Həyat"ı necə böyük yanğı, məhəbbətlə yaratmışdısa, Teymur Əhmədov da nəşrinə rəvac verdiyi qəzet və jurnalları ("Ata yurdu" (1989), "Vətən səsi" (1990-1991), "Elturan" (Milli məsələlər – 1992), "Vətən həsrəti", "Hikmət" (1992-1993), "Yeni fikir" (1994-1995), "Füyuzat" (2007-ci ildən indiyədək) həmin yanğı, sevgi ilə işıq üzünə çıxarmışdır.

...Teymur Əhmədov da sələflərinin amallarını vətənpərvərlik, milli təəssübkeşlik hissi, elmi-mədəni yüksəlişin tərənnümçüsü, təbliğçisi kimi sözü, əməli ilə davam etdirmişdir.

2020-ci il iyulun 22-də Azərbaycan Milli Mətbuatının 145 yaşı tamam olur. Azərbaycan xalqının təbəddülatlarla zəngin olan həyatı, milli mücadilə tarixi bütün gerçəkliyi ilə klassik mətbuat səhifələrində öz əksini tapmışdır. Xatırladaq ki, Həsən bəy Zərdabinin mənəvi övladı sayılan "Əkinçi"dən başlamış və ondan sonra yaranan mətbuatımız milli düşüncənin oyanması, maarifçilik ideyalarının formalaşması və təşəkkülündə çətin, həm də şərəfli bir yol keçmişdir. Bütün bunlar mətbuat tariximizin yaranması, inkişafı proseslərini özündə güzgü kimi əks etdirən 145 ilin möhtəşəm bir salnaməsini meydana gətirdi. Belə bir zəngin mətbu irsi yeni və fərqli aspektdən, tədqiq etmək olduqca əhəmiyyətlidir. Bu salnaməni yaradan maarifçi ziyalıların həyat yolunu, vətən və xalq naminə xidmətlərini gənc nəslə tanıtmaq da bizim mənəvi borcumuzdur.

Bəli, bu yol Həsən bəy Zərdabidən başladı və ondan sonra Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Məhəmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məhəmməd Ağa Şahtaxtlı, Üzeyir bəy Hacıbəyli kimi vətən, millət sevdalıları tərəfindən davam etdirildi. Sonrakı nəslin mətbuat fədailəri də bu yolu sələflərinin yaşadığı milli, bəşəri mücadilə aspektində öyrənməyə, davam etdirməyə çalışdılar. Milli mətbuatımız müstəqillik dövründə daha rəvan bir axarla fəaliyyət göstərir. Mətbuat həyatda baş verən hadisələrə, ictimai fikrin ifadəsinə maarifçilik mövqeyindən münasibət bildirir, bütün hallarda dövlətin və xalqın mənafeyini, milli maraqları müdafiə edir, iqtisadi-mədəni yüksəlişimizi, ictimai-sosial həyatımızın inkişafı yolunda hər zaman mübarizə aparır. Mətbuatın daşıdığı missiya kifayət qədər taleyüklüdür.

Sözümüz, H.Zərdabi məktəbindən dərs almış maarifçi nəslin ənənəsinə söykənən, sələflərinin yolunu yeni məfkurə ilə davam etdirməyə çalışan və bu sahədə zəngin təcrübəyə malik mətbuat xadimi, maarifçi ziyalı, filologiya elmləri doktoru, professor Teymur Əkbər oğlu Əhmədov haqqındadır. Burada bir məqamı da xatırladım ki, Milli Mətbuatımızın 145 illiyinin ustadın 90 illk yubileyi ilə bir vaxta təsadüf etməsi fikir və mülahizələrimizi paralellik müstəvisində şərh etməyimizə imkan yaradır. İlk fikir kimi qeyd etməliyik ki, Teymur Əhmədov həyatının böyük bir hissəsini, həm də ən məhsuldar çağlarını Milli Mətbuatımızın inkişafına həsr etmişdir. O, XX-XXI əsrin qovşağında mətbuatımızın çətin və şərəfli yolunda mübariz, vətənpərvər, ziyalı, qüdrətli jurnalist olmuşdur.

Teymur Əhmədovun mətbuat fəaliyyətinə xronoloji ardıcıllıqla nəzər salanda yetərincə dolğun və mükəmməl olan mənzərə göz önünə gəlir. 90 illik ömrünün 70 ilini mütəmadi, davamlı şəkildə mətbuatda olmaq, zamanı üçün aktual səslənən mövzulardan cəsarətlə söz açmaq, hər hansı bir şəraitdə milli əhəmiyyətli məsələlərdə prinsipiallıq göstərmək, sözün həqiqi mənasında peşəsinə ruhən bağlılıq və fədakarlıqdır. Həyata nikbin baxışlar, inamla yaşanılan ömür o qədər zəngindir ki...

Akademik Cəmil Quliyev "Zəhmət və istedadın vəhdəti" məqaləsində yazır: "Soruşularsa Teymur Əhmədov tədqiqatçı kimi qüvvətlidir, yoxsa jurnalist kimi? Çətin sualdır, məncə o jurnalistik fəaliyyətində yaxşı tədqiqatçı, tədqiqatçı fəaliyyətində yaxşı jurnalistdir. Bu iki tərəf onun yaradıcılığında vəhdət təşkil edir! Ən ümdə Teymur zəhmətkeş, sadə insandır"..

Teymur Əhmədovu mətbuata aparan yol öz başlanğıcını məktəb illərindən almışdı. Onun uzaq illərin arxasında qalmış məktəb həyatına nəzər yetirmək, hafizəsinin dərin qatlarında, yaddaşında yer almış xatirələrinə işıq salmaq da öz zərurətini doğurur.

Teymur müəllimin memuar xarakterli "Mənim həyatım" xatirə əsəri və yüzlərlə ciddi mövzularda qələmə aldığı publisistik məqalələri, sənədli-bədii povesti ilə yaxından tanışlığımız təsəvvürümüzdə jurnalistin keçdiyi həyat yoluna aydınlıq gətirdi. Belə bir aydınlıqda Azərbaycan mətbuatının sonuncu mogikanı, böyük bir nəslin yolgöstərəni, mənəvi müəllimi sayılan professor Teymur Əhmədovun jurnalistlik fəaliyyətindən bəhs etmək, qeyd etdiyimiz kimi, Milli Mətbuatımızın bir başqa istiqamətdən öyrənilməsinə yol açır.

**Məqamın doğurduğu bir haşiyə.**

Hər şey 8-ci sinif şagirdi Teymurun məktəbdə divar qəzetinin redaktoru olmasından başladı. Bir gün Məktəb Pedaqoji Şurasının iclasına dəvət olunan Teymura ilk komsomol təşkilatının katibi vəzifəsini təklif edirlər. Ona bu vəzifəni tapşırmaqda məqsəd başını uşaqların nizam-intizamına, dərslərə davamiyyətinə, məktəbdə keçirilən tədbirlərin təşkilinə cəlb etməklə bir növ özünün də nizam-intizamlı olmasını təmin etmək idi. Teymursa 9-cu sinifdə olan dostunun yerinə – bu vəzifəyə heç vaxt keçməyəcəyini bildirir. O zaman məktəbin direktoru ona məktəb divar qəzetini çıxarmağı həvalə edir.

Boyca hamıdan balaca, çəlimsiz olan, amma bütün fənləri əla oxuyan məktəbli oğlan dərslərini hazırladıqdan sonra böyük məsuliyyətlə həvəslə məktəb divar qəzetini yaratmağa girişir. Əvvəlcə qəzetin adı barədə düşünür. Və çox keçmir ki, ona "Molla Nəsrəddin" adını verir. Niyə məhz Molla Nəsrəddin? Bu yerdə bizdə belə bir təsəvvür yarandı ki, Teymur müəllim hələ o zamandan Mirzə Cəlilin "Molla Nəsrəddin" jurnalının mövzuları, xalqın dərdlərindən bəhs edən yazılardan müəyyən mənada xəbərdar idi. Və az-çox bildikləri də elə ilk gəncliyindən bu jurnala onda böyük maraq oyatmışdır. Yeri gəlmişkən, Teymur Əhmədovun oxuduğu Uluxanlı (Zəngibasar) məktəbində vaxtilə Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasını bitirən Mirzə Cəlil Məmmədquluzadə müəllimlik etmişdir. Bu səbəbdən də ədibin xatirəsi həmin məktəbdə həmişə əziz tutulurdu. Burda təhsil alan şagirdlər məhz Mirzə Cəlilin dərs dediyi Uluxanlı məktəbində təhsil aldıqlarını qürur hissi ilə anırdılar. Yeniyetmə şagird Teymurun da məktəb divar qəzetinə "Molla Nəsrəddin" adı verməsinin başlıca qayğısı məhz bu idi.

O, "Molla Nəsrəddin" məktəb divar qəzetinə gözəl tərtibat verir, dərs əlaçı-



ları üçün fəxri guşə açır, tənbəllər əleyhinə felyetonlar yazır, mətnlərə uyğun rəsmlər çəkir. Onun hazırladığı dolğun, rəngarəng, maraqlı yazılar çəkdiyi karikaturalar məktəbin müəllim və şagird kollektivi tərəfindən rəğbətlə qarşılandı. Bütün məktəb Teymurun istedad və qabiliyyətinə heyran qaldı. Sən demə, bu məşğuliyyəti təbiətində doğallıq şəklində özünü göstərdi. Elə o zamandan yaradıcılığa olan həvəsi pərvəriş tapdı. Yeni bir aləmə qədəm qoyanda, onun ağlına da gəlməzdi ki, sonradan ömrünü Milli Mətbuata bağlayacaqdı. Həyatda ən böyük məramı da Milli Mətbuatın inkişafına öz töhfəsini bəxş etmək olacaqdı. Bu səbəbdən də mükəmməl biliyə, səriştəyə malik olan təcrübəli jurnalist XX-XXI əsrlərin qovşağında milli müstəqilliyimizin bərpası və möhkəmlənməsi yollarında milli oyanış dövrü mətbuatının yaradıcısı, təəssübkeşi kimi cəfalara, əziyyətlərə qatlaşacaqdı...

Teymur Əhmədov Azərbaycan Dövlət Universitetini bitirdikdən sonra 1954-cü ilin avqust ayından doğma yurdu İrəvanda Ermənistan KP Mərkəzi Komitəsinin orqanı "Sovet Ermənistanı" qəzeti redaksiyasında əmək fəaliyyətinə başladı. Elə həmin vaxtlardan mətbuatımızın keçib gəldiyi yolu, onu yaradanların məramını, maarifçi-pedaqoqların nəzəri görüşlərini öyrənməyə çalışdı.

1954-1961-ci illərdə "Sovet Ermənistanı" qəzetində ilk məqaləsi qətrəqətrə yığılan özününamın təməl daşı oldu. Teymur müəllim bu mətbu orqanda ədəbi işçi, məsul katibin müavini vəzifələrində çalışdı. Redaksiyada şöbə əməkdaşlarının məqalələrini redakte edib çapa hazırlamaqla yanaşı, topladığı materiallar əsasında məqalə və oçerklər də yazırdı. Onun mətbuatda ilk kövrək addımları belə başlamışdı.

Əmək adamlarının ictimai-sosial həyatı, eləcə də ədəbiyyat, mədəniyyət məsələləri yazılarının başlıca mövzusu olurdu. Yeni kitablar, kinofilmlər, rəssamların sərgisi haqqında xəbərlər, eləcə də Bakıda nəşr olunan elmi, ədəbi monoqrafiyalar, antalogiyalardan bəhs edən rəylər, məqalələr yazırdı. İrəvan radiosunun Azərbaycan verilişlərində kənd təsərrüfatı zəhmətkeşlərinə həsr etdiyi oçerkləri səslənirdi. Elə o vaxtdan özünü jurnalistikada özünüifadəyə geniş imkan yaradan publisistikada görə bildi. Bu mənada "Sovet Ermənistanı" qəzeti redaksiyası gənc Teymur Əhmədovun həyat məktəbi olmuşdu.

Həmin vaxtlar (1959-1961) Moskvada "Pravda" redaksiyasının təşkil etdiyi ikiillik Ümumittifaq qiyabi Jurnalistika lektoriyasında nəzəri biliyini artırdı. SSRİ Jurnalistlər Birliyinin üzvlüyünə daxil oldu.

Bu dövrdə Qərbi Azərbaycan ziyalılarının, şair, yazıçıların yaradıcılığına yaşıl işıq yandırılması, qəhrəmanlıq tariximizin, ədəbi məxəz, qaynaqlarımızın üzə çıxarılmasında mükəmməl tədqiqatçı kimi Teymur Əhmədovun xidmətləri əvəzsiz idi. Onun ərsəyə gətirdiyi əsərlər təkcə yazıldığı tarixdə deyil, bu gün də, sabah da İrəvan mətbuatının öyrənilməsində ilk mənbə olaraq böyük əhəmiyyətə malikdir.

Həmin illər gənc jurnalistin tez-tez kənd rayonlarına ezam olunması, insanların həyat tərzi, işi, əməlləri ilə yaxından tanışlığına geniş üfüqlər açmışdı. Odur ki, soydaşlarımızın problemləri, çətinlikləri barədə qəzetdə geniş yazılarla çıxış edirdi.

Onun qələm məhsulları ədəbi, tarixi, mədəni, mənəvi və ictimai əhəmiyyətli məsələlərdən bəhs etməklə cəmiyyətin maraq və müzakirə mərkəzində idi. Bu, gənc jurnalisti yaradıcılıq axtarışlarını davam etdirməyə nəinki həvəsləndirir, getdikcə mənəvi ehtiyaca çevrilir. İşdən macal tapdıqca İrəvan Dövlət Tarix arxivinin dəmir rəflərində üstünü toz basmış qovluqlarda qat kəsmiş, saralmış vərəqləri araşdıraraq çox qiymətli sənəd və faktları aşkara çıxarır. Bu sənədlər əsasında İrəvan Xanlığında xalqımızın malik olduğu milli-mənəvi dəyərləri, qəhrəmanlıq tariximizi öyrənir. Bu mövzularda qələmə aldığı yazılar ona qarşı erməni şovinistlərinin qəzəbini kükrətsə də, tez-tez hakim dairələrdə sorğu-suala çəkilsə də, bunlar gənc qələm sahibini qorxutmur, əksinə, axtarışlarını daha ciddi şəkildə davam etdirirdi. T.Əhmədov tədqiqat axtarışlarında bir çox məsələlərə aydınlıq gətirilməsində elə erməni arxiv mənbələrindən topladığı sənədlər, faktlarla onları susdurmağı bacarmışdır. Hətta, erməni ziyalıları onun rəsmi sənədlərə, faktlara söykənmiş, milli təəssübkeşliklə qələmə aldığı yazılarını oxuyanda daşdan keçən mənbələrin qarşısında susur, hətta müəllifə razılıqlarını da bildirirdilər.

Teymur Əhmədov həmin vaxtlarda Ermənistanın Mərkəzi Dövlət Tarix arxivində 1918-1920-ci illərin milli münaqişələr zəminində baş vermiş hadisələri əks etdirən çoxlu sayda sənədlər və digər materiallar üzə çıxarmışdır. Onların arasında Abbasqulu bəy Şadlinski və onun silahdaşlarının qəhrəmanlığından, "Qırmızı tabor"un fəaliyyətindən hələ kiçik yaşlarında nənəsindən eşitdiyi hadisələrə aid olan materiallar, məlumatlar toplamışdır.

*(Davamı 5-ci səhifədə)*

# XX-XXI ƏSRLƏRİN QOVŞAĞINDA MİLLİ MƏTBUATIN ÇƏTİN VƏ ŞƏRƏFLİ MÜBARİZƏSİ

## *Teymur Əhmədovun jurnalistik fəaliyyətinə bir nəzər*

*(Əvvəli 3-cü səhifədə)*

Məzuniyyətdə olduğu vaxtlarda da o, Mərkəzi Dövlət Tarix arxivində 1918-1920-ci illərdə Ermənistanda baş vermiş ictimai-siyasi hadisələri, hərbi əməliyyatları əks etdirən məxfi sənədləri araşdırır, Şadlinskinin və onun "Qırmızı tabor" alayının fəaliyyətini öyrənir, materiallar toplayır, sənədlərin foto surətini çıxarırdı. Müəllif bu mövzuda ilk məqaləsi üçün əldə etdiyi arxiv materialları ilə kifayətlənməyib, Vedi rayonunu kəndbəkənd gəzir, yaşlı adamlardan xatirələr toplayırdı. Eləcə də 1948-52-ci illərdə Ermənistandan deportasiya edilərək Gəncə, Şəmkir, Goranboy, Ağdam və digər bölgələrə köçürülən insanlarla görüşür, canlı şahidlərin xatirələrini qələmə alırdı. Yeri gəlmişkən, mövzu ilə bağlı Teymur müəllim öz xatirələrində yazır ki, II Dünya müharibəsi veteranı, Sovet İttifaqı Qəhrəmanı, general mayor S.S.Martirosyan da 1918-1920-ci illərdə Ermənistanda daşnaklara qarşı döyüşlərdə iştirak edib və "Qırmızı tabor"un keçdiyi döyüş yolunun şahididir. Bu barədə o, xatirələrini yazıb gənc jurnalistə verir. Teymur Əhmədovun bu mövzuda yazdığı ilk məqaləsi Ermənistan Partiya Tarixi arxivinə rəyə göndərilir. Arxivin baş elmi işçisi İ.Tahiryan bildirir ki, "məqalədəki faktlar tarixi həqiqəti əks etdirir, onu dərc etmək məqsədəuyğundur".

Göründüyü kimi, erməni qadağalarının, fitnə-fəsadının içində belə, o, araşdırıb üzə çıxardığı qəhrəman oğullarımızın mübarizliyini ciddi yazılarının mövzusu etmişdir. Və beləliklə, müəllifin xalq qəhrəmanı Abbasqulu bəy Şadlinski haqqında yazdığı əsər real faktlara və sənədlərə söykəndiyindən oxucular tərəfindən böyük maraqla qarşılanır. T.Əhmədov həmin vaxtlar bu mövzuda İrəvan, Bakı, Naxçıvan mətbuatında maraqlı yazılarla çıxış etmişdir. Gənc jurnalist topladığı yeni materiallar əsasında sonralar "Vedibasarın qanlı-qadalı günləri" sənədli povestini ərsəyə gətirmişdir. Əsər təkcə yazıldığı dövr üçün deyil, bu gün də, sabah da qaniçən, qəddar, cəllad, xain, xəyanətkar Andronik Ozanyanın bəşər tarixində qeyri-insani hərəkətlərinin, humanizmə zidd olan əməllərinin ifşa olunması, gələcək nəsillərə tanıdılması baxımından diqqəti cəlb edir.

"Sovet Ermənistanı" qəzetində çalışdığı vaxtlarda o, həm də Bakı mətbuatını, ədəbi mühitini izləyirdi. Orada dərc olunmuş əsərlər, ədəbiyyat tariximizin görkəmli şəxsiyyətlərini, maarifçi ziyalılarımızı tədqiq edən monoqrafik kitablar haqqında yazdığı publisistik məqalələrlə təkcə çalışdığı qəzetdə deyil, erməni dilində nəşr olunan qəzet və jurnallarda da çıxışlar edirdi. O, İrəvanda Bakı ictimai-ədəbi mühitinin ən ləyaqətli nümayəndəsi, Ermənistan azərbaycanlılarının həyatı, yazıçı və şairlərinin yaradıcılığını təqdir və təbliğ edən ziyalı idi. Bu mənada İrəvan mətbuatında çalışdığı illəri T.Əhmədovun tərcümeyi-halının tər-təzə pöhrələrlə qol-budaq atdığı "yaşıl dövrü" adlandırmaq olar. Dediklərimizi isbat edəcək dəlillər isə onun fəaliyyətində diqqətimizi cəlb edən çoxlu sayda qələm məhsullarıdır.

* * *

İkinci Dünya müharibəsindən sonra Qərbi Azərbaycanda yaşayan azərbaycanlı şair və yazıçılara Ermənistan dövləti tərəfindən heç bir qayğı göstərilmir, əsərləri çap olunmurdu. Teymur Əhmədov "Sovet Ermənistanı" qəzetinin müdrik ağsaqqal redaktoru Cəfər Vəlibəyovun razılığı ilə gənc şairlərin redaksiyaya göndərdikləri şeirlərdən vaxtaşırı "Ədəbiyyat səhifəsi"ndə dərc etməklə ədəbi ictimaiyyətin diqqətini cəlb etmişdi.

Teymur Əhmədov "Sovet Ermənistanı" qəzetində dərc etdirdiyi "Gənc müəlliflərin bədii yaradıcılığına diqqəti artırmalı" məqaləsində Ermənistan Yazıçılar İttifaqı rəhbərliyinin gənc azərbaycanlı yazıçılara laqeyd münasibətini ciddi tənqid etmişdi. Gənc jurnalistin bu çıxışı Ermənistan KP Mərkəzi Komitəsində əks-səda doğurmuşdu. Bir həftə ötməmiş rəhbərliyin tapşırığına əsasən tanınmış erməni şairləri – Aşot Qraşi və Arşavir Darbni redaksiyaya gəlib, Ermənistan Yazıçılar İttifaqının göstərişinə əsasən "Sovet Ermənistanı" qəzetinin nəzdində Azərbaycan Yazıçılar Birliyini təsis etdilər. Bu qərardan irəli gələn tövsiyələrə əsasən Ermənistan Yazıçılar İttifaqının rəhbərliyi (sədr Avetik İsahakyan idi) ildə 20 çap vərəqi həcmində "Ədəbi Ermənistan" almanaxının buraxılmasını və gənc yazıçıların əsərlərinin kitabça halında ayrıca nəşrini qərara almışdı. Bu xəbər bütün mərkəzi rəsmi qəzetlərdə dərc olundu. Ədəbi almanaxın təşkili məsələsi yazıçı Əkbər İrəvanlıya tapşırıldı. Pedaqoji İnstitutun Azərbaycan şöbəsinin tələbələrinin və gənc yazıçıların iştirakı ilə keçirilən yığıncaqda Əkbər İrəvanlı Birliyin sədri, Teymur Əhmədov isə məsul katibi seçildi.

1957-ci ildə "Ədəbi Ermənistan" almanaxının birinci nömrəsinin işıq üzü görməsi də məhz Əkbər İrəvanlı və Teymur Əhmədovun səyi nəticəsində baş tutdu. Bu, respublikada azərbaycanlı yazıçı gənclərin arasında böyük ruh yüksəkliyi yaratmışdı. Teymur Əhmədov "Sovet Ermənistanı" qəzetinin redaktoru Cəfər Vəlibəyovun dəstəyi ilə "Ədəbi birliyin" üzvlərinin İrəvanda keçirilən gənc yazıçıların ümumrespublika müşavirəsində iştirakını təşkil etdi. Həmin gün "Qraqan tert" ("Ədəbiyyat qəzeti") Teymur Əhmədovun irihəcmli məqaləsi fonunda onun gənc azərbaycanlı yazıçılarla foto-şəklini də çap etmişdi. Bütün bunlar onu deməyə imkan verir ki, gənc jurnalist T.Əhmədov İrəvanda Azərbaycan maarifinin, mədəniyyətinin, ədəbiyyatının təəssübkeşi olmuşdur.

* * *

Teymur Əhmədov o zaman erməni mətbuatında Azərbaycan tarixini, onun qəhrəman oğullarını bilərəkdən gözdən salan, aşağılayan yazılara da cəsarətlə cavab verir, onların saxtakarlığını ifşa edirdi. Həmin illərdə erməni yazıçılarından biri "Qraqan tert" ("Ədəbiyyat qəzeti") qəzetində yazırdı ki, "Qaçaq Nəbi o taydan (İran ərazisindən) öz quldur dəstəsi ilə Arazı keçib erməni kəndlərini talan edir, dağıdırdı".

Erməni yazıçısı Abramovun yalanlarını tutarlı və məntiqi cavabları ilə ifşa etməkdən ötrü gənc jurnalist arxiv sənədlərinə, eyni zamanda vaxtilə Nəbini şəxsən görən, xatirələrinə istinadən yazdığı "Tarixi fakt təhrif edilmişdir" adlı məqaləsini "Sovet Ermənistanı" qəzetində (10 may, 1958) dərc etdirir. Məqalə rəsmi dairələrdə qəzəblə qarşılanır, gənc jurnalisti Ermənistan KP Mərkəzi Komitəsində sorğu-suala çəkirlər. O, çəkinmədən, Nəbinin Azərbaycan kəndlilərinin arasından çıxmış xalq qəhrəmanı olduğunu, azərbaycanlı və erməni kəndlilərini müdafiə etdiyini, harın mülkədarları, məlik və hampaları qorxu altında saxladığını, onların var-dövlətini yoxsul kəndlilərə payladığını təkzibedilməz faktlarla sübut edir. Bununla da erməni yazıçısının iftiralarını ifşa edərək puça çıxarır. Lakin Ermənistan KP MK ictimai-siyasi şöbəsinin müdiri Gevork Hayryan Teymur Əhmədovu "millətçilikdə, xalqlar arasında nifaq salmaqda" günahlandırmağa çalışır". Lakin Ermənistan KP MK Birinci katibi Tovmasyan ictimai-siyasi təbliğat şöbəsinin müdiri G.Hayryanı "hay-küy" salmaqda tənbeh edir. "Bu məsələni büroya çıxarmaq olmaz. Qaçaq Nəbi azərbaycanlıların xalq qəhrəmanıdır", – deyir.




Çox keçmir ki, "Qraqan Tert" qəzetində redaksiya heyətinə və "Mincevan" oçerkinin müəllifinə töhmət verildiyi bildirilir...

T.Əhmədovun "Sovet Ermənistanı" qəzetindəki yazılarında rezonans doğuran cəsarətli fikirləri, hadisələrə doğru mövqedən yanaşılması, həqiqətin meydana çıxarılması məqsədini daşıyırdı. Bu mənada onun Azərbaycan tarixinin, görkəmli şəxsiyyətlərin üstünə kölgə salan faktları puça çıxarması böyük əhəmiyyət kəsb edirdi.

Teymur Əhmədovun zəhmət adamlarının həyatından bəhs edən yazılarında da dədə-baba yurdlarında əsrlərlə yaşayan soydaşlarımızın milli-mənəvi dəyərlərə, ənənələrə malik olduğunu, incə notlar, real tarixi dəlillərlə təsvir etməsi azərbaycançılıq mövqeyinin göstəricisi idi.

Teymur Əhmədov "Sovet Ermənistanı" qəzetində çalışdığı illərdə qədim Oğuz yurdunda, dədə-baba torpaqlarımızda yaşayan soydaşlarımızın keçmiş həyatını öyrəndi, onların ictimai mövqeyinə, qədim tarixinə, adət-ənənələrinə, köklü mədəniyyətinə, qurub-yaratmaq əzminə yaxından bələd oldu. Bütün bunlar onun mətbuat yaradıcılığında azərbaycançılıq mövqeyindən ifadəyə geniş imkan yaratdı, gəncliyindən, ilk qələm təcrübələrindən mübariz bir qələm sahibi olduğunu göstərdi.

Teymur Əhmədovun İrəvanda, "Sovet Ermənistanı" qəzeti redaksiyasında (1954-1961) işləməsi onun vətəndaş ziyalı kimi yetkinləşməsinə ciddi təsir göstərdi. Onun işgüzarlığı, jurnalistika aləmində ilk cəsarətli addımları, arxivlərdə işləməsi, inadlı axtarış bacarığı, ilk qələm təcrübələri, sanki həyat eşqi ilə yaşayan gəncin sonrakı ədəbi, elmi fəaliyyətinə uğurlu zəmin yaratdı.

* * *

Teymur Əhmədov 1961-ci ildə ailəlikcə Bakı şəhərinə köçdü. Elə həmin il Azərbaycan Elmlər Akademiyasının Dil və Ədəbiyyat İnstitutunun aspiranturasına daxil oldu. Elmi rəhbəri Xalq yazıçısı, akademik Mirzə İbrahimovun təklifi ilə görkəmli ictimai-siyasi xadim, yazıçı Nəriman Nərimanov ədəbi irsini araşdırmağa başladı.

Sovet hakimiyyəti dövründə 50 il adının çəkilməsi belə qadağan olunmuş Nəriman Nərimanovun irsini araşdırmaq müşkül məsələ idi. Lakin 1954-1960-cı illərdə sükut buzu sınmışdı: akademik Cəmil Quliyev, yazıçılar – Qılman İlkin, Mir Cəlal, ədəbiyyatşünas alimlər – Hidayət Əfəndiyev, Mikayıl Rəfili Cəfər Xəndan və onun aspirantı Vəli Məmmədov Nəriman Nərimanovu siyasi xadim, maarifçi yazıçı-nasir, dramaturq kimi xalqa tanıtmaq üçün onun əsərlərini nəşr etməyə, tədqiq və təbliğ etməyə başladılar.

1961-1964-cü illərdə aspirant Teymur Əhmədov Nəriman Nərimanovun ədəbi irsinə, ədəbi-ictimai mühitinə və mübarizəsinə aid nə varsa, bacarığı və var qüvvəsi ilə toplamağı, araşdırmağı, mətbuatda məqalələrlə çıxış etməyi qarşısına məqsəd qoydu.

O, Bakı, Moskva, Sankt-Peterburq, Tiflis, Kazan, Həştərxan dövlət arxivlərində elmi axtarışlarında xeyli materiallar topladı. "Bakı" axşam qəzetində, "Ədəbiyyat qəzeti"ndə, İrəvan və Naxçıvan mətbuatında Nəriman Nərimanovun həyatı, ictimai fəaliyyəti və ədəbi yaradıcılığı haqqında, silsilə məqalələr dərc etdirdi.

Teymur Əhmədov "Nəriman Nərimanovun dramaturgiyası" mövzusunda elmi-tədqiqat əsərini vaxtında yazıb başa çatdırdı. Aspiranturada təhsil müddəti başa çatdığından bir neçə il sonra Azərbaycan Yazıçılar Birliyində – "Azərbaycan" jurnalının tənqid və ədəbiyyatşünaslıq şöbəsinə rəhbərlik etdi. 1968-ci ildə isə müsabiqə yolu ilə Dil və Ədəbiyyat İnstitutunun XIX əsr Azərbaycan ədəbiyyatı şöbəsində baş elmi işçi yerini tutur. Namizədlik işini böyük müvəffəqiyyətlə müdafiə edir.

Elmi rəhbəri müdafiədən bir gün qabaq Moskvadan öz xətti ilə ilk aspirantına belə bir məzmunda fototeleqram göndərir: "Əzizim Teymur, təbrik edirəm. İnanıram ki, müdafiən uğurla keçəcəkdir. Mirzə İbrahimov". Belə də olur. Teymur müəllim xatırlayır ki, dissertasiyanı müdafiə etdiyim gün İsmailiyyə binasında böyük zalın ağzınacan dolu olması Nəriman Nərimanova ümumxalq məhəbbətinin təzahürü idi...

Opponentləri – akademik Məmməd Cəfər Cəfərov, filologiya elmləri doktoru Kamal Talıbzadə, akademik Firudin Köçərli və digərləri öz çıxışlarında Teymur Əhmədovun böyük cəsarətlə, uzun illərin ağır zəhmət və əziyyətləri sayəsində tədqiqat işini uğurla başa çatdıraraq müdafiə etməsini böyük rəğbətlə qarşılayırlar.

*(Davamı var)*

*Şəfəq NASİR*